Tarix və onun problemləri, №1-2 2009

EMİLİYA ƏLİYEVA
*AMEA Tarix İnstitutunun əməkdaşı*

# XVIII ƏSRİN İKİNCİ YARISI – XIX ƏSRİN ƏVVƏLLƏRİNDƏ NAXÇIVAN XANLIĞINDA ƏKİNÇİLİK

Azərbaycan xalqının təsərrüfat fəaliyyətinin ənənəvi sahələrindən olan əkinçilik XVIII əsrin ikinci yarısı-XIX əsrin əvvəllərində Naxçıvan xanlığında da öz əvvəlki əhəmiyyətini saxlamışdı. Əlverişli iqlim şəraiti, münbit torpaq örtüyü, yüksək inkişaf səviyyəsinə çatmış süni suvarma sistemi və nəhayət, əsrlər boyu təşəkkül tapmış zəngin istehsal vərdişləri xanlığın əhalisinin böyük əksəriyyətinin əkinçiliyin taxılçılıq, çəltikçilik, texniki bitkilər istehsalı, bağçılıq, bostançılıq və tərəvəzçilik kimi çox müxtəlif sahələri ilə məşğul olmasına şərait yaradırdı.

Naxçıvan xanlığında relyefin və iqlim şəraitinin müxtəlifliyi ümumi torpaq fondundan əkinçilik üçün istifadə edilməsinə ciddi təsir göstərirdi. Əksər xanlıqlarda olduğu kimi, burada da ümumi torpaq fondunun çox böyük hissəsi əkin dövriyyəsinə cəlb edilməmişdi. Təqribi hesablamalara görə, Ordubad dairəsi istisna olmaqla, Naxçıvan xanlığında 20 min desyatin becərilən torpaq sahəsi var idi. Naxçıvan şəhəri də daxil olmaqla burada 5500 ailə yaşayırdı [9, c. 16]. Becərilən torpaq sahələrini ailələrin ümumi sayına bölsək, hər ailəyə, orta hesabla 3,6 desyatin torpaq sahəsi düşdüyünün şahidi oluruq.

Əkinçiliyin daha intensiv inkişaf etdiyi Ordubad dairəsində hər ailəyə düşən becərilən torpaqlar nisbətən az idi. Cəmisi 5 kəndi əhatə edən Çinanap mahalında yaşayan 128 ailənin istifadəsində 125 xalvar (1 xalvar 28 pud 4 funta bərabər idi) becərilən torpaq sahəsi var idi [4, v. 2-42]. Göründüyü kimi, mahalda yaşayan hər ailəyə 1 xalvardan az becərilən torpaq sahəsi düşürdü. Ordubadın Belev mahalının bir sıra kəndlərində də təxminən belə vəziyyət hökm sürürdü[4, v. 120, 129].

Azərbaycan xanlıqlarının əksəriyyətində əhalinin sayına nisbətdə əkinə yararlı torpaqlar xeyli çox idi. Bu isə əkinçilikdə iki və üç tarlalı əkin sistemlərinin tətbiqi üçün əlverişli şərait yaradırdı. İkitarlalı əkin sistemində tarla bir il əkilir, ikinci il dincə qoyulurdu. Bu sistemdən əkinə yararlı torpaqların bol olduğu dağlıq ərazilərdə daha çox istifadə edirdilər. İ.Şopen yazırdı ki, İrəvan və Naxçıvan xanlıqlarının dağlıq əraziləri əhatə edən bir sıra mahallarında «əkin sahələrini bir, iki və hətta üç il dincə qoyurlar» [13, c. 737]. Naxçıvan şəhərində və onun ətafında şəhər əhalisinə məxsus 600 xalvarlıq əkin sahələri də ikitarlalı əkinçilik üsulu ilə becərilirdi. Hər il bu torpağın 300 xalvarı dincə qoyulur, yerdə qalan 300 xalvarlıq sahənin 250 xalvarında taxıl, 20 xalvarında pambıq, 10 xalvarında çəltik, 20 xalvarında isə bostan bitkiləri əkilirdi [9, c. 70]. Adətən, dincə qoyulmuş sahədən otlaq və ya biçənək kimi istifadə edilirdi.

Azərbaycanın digər yerlərində olduğu kimi, Naxçıvan xanlığında da əkinçiliyin aparıcı sahəsini taxılçılıq təşkil edirdi. Bütün orta əsrlər ərzində kənd təsərrüfatında natural təsərrüfatın üstünlüyü şəraitində ticarət əlaqələrinin zəifliyi, siyasi həyatda hökm sürən qeyri sabitlik hər bir kəndli ailəsini özünün ən zəruri ərzaq məhsulları, ilk növbədə isə taxıl məhsulları ilə təmin etmək zərurəti qarşısında qoyurdu. Məhz bunun nəticəsi idi ki, taxılçılıq yalnız kənd yerlərində deyil, əlverişli imkanlara malik olan şəhərlərdə də əhalinin təsərrüfat fəaliyyətində mühüm yer tuturdu.

Taxıl məhsullarının becərilməsi şumlama, səpin, suvarma, biçin və taxılın döyülməsi kimi müxtəlif mərhələlərdən keçirdi. Gələcək məhsulun həcmi və keyfiyyəti bir çox cəhətdən şumlamadan asılı olurdu. Azərbaycanın əksər xanlıqlarında şumlama ildə

iki dəfə - payızda və yazda aparılırdı. İqlim şəraitindən asılı olaraq payızlıq taxıl sahələrinin əkilməsi sentyabr-oktyabr aylarında həyata keçirilirdi [1, ç. III, c. 285; 13, c. 738].

Naxçıvan xanlığında hər il taxıl biçilib döyüldükdən sonra xan hazır məhsulun miqdarını müəyyənləşdirmək üçün öz məmurlarını kəndlərə göndərirdi. Hazır məhsulun ümumi miqdarı müəyyənləşdirildikdən sonra aşağıdakı şəkildə bölünürdü. Divan torpaqlarından yığılmış məhsulun 10 hissəsindən 3,5 hissəsi bəhrə vergisi şəklində xəzinəyə verilir, yerdə qalanı isə əkinçinin sərəncamında qalırdı [9, c. 105].Əkinçi mülkədar torpaqlarında becərdiyi məhsul üçün də həmin miqdarda pay alırdı. Hazır məhsulun vergi kimi götürülən hissəsi isə mülkədarla dövlət arasında bölüşdürülürdü. Belə ki, vergi üçün nəzərdə tutulan taxılın 1,5 hissəsini mülkədar, 2 hissəsini isə xan alırdı. Vergilik taxılın 2 hissəsini buğda, 1 hissəsini isə arpa təşkil edirdi [9, c. 105].

Digər xanlıqlarla müqayisədə Naxçıvan xanlığında çəltik bitkisinə məxsus əkin sahələrinin çox olduğunu iddia etmək olmaz. Halbuki, XVII əsrin II yarısında bu sahədə vəziyyət daha yaxşı idi. Həmin dövrdə Naxçıvanda olmuş Taverniye burada bir neçə çayın suyu ilə suvarılan geniş çəltik tarlaları haqqında məlumat verir. [12, s.114]. Görünür, XVII əsrin sonlarından başlamış iqtisadi tənəzzül çəltikçiliyin də vəziyyətinə mənfi təsir göstərmişdir. Naxçıvan sancağının XVIII əsrin 20-ci illərinə aid olan müfəssəl dəftərində çəltik üşürü təriqilə verginin cəmisi 12 yaşayış məntəqəsindən toplandığı qeyd edilir [8]. Belə vəziyyət XVIII əsrin sonu-XIX əsrin əvvəllərində də qalmışdı. V.Qriqoryev qeyd edirdi ki, çəltik daha çox Naxçıvan mahalında, qismən isə Əlincəçay mahalının Əbrəqunis, Camaldin, Saltax, Xanağa, Cura, Keşişkənd kəndlərində və Dərələyiz mahalının qərb hissəsində becərilirdi [9, c. 88]. Bununla belə, Naxçıvanda çəltiyin orta məhsuldarlığı xeyli yüksək olub birə iyirmi beş təşkil edirdi. Görünür elə bunun nəticəsi idi ki, xanlıqda istehsal edilən məhsul yerli əhalinin tələbatını ödəməklə yanaşı Xoy, Mərənd və Təbriz şəhərlərinə də göndərilirdi [9, c. 95].

Əldə olan məlumatların təhlili göstərir ki, xanlıqlar dövründə Şimali Azərbaycanın ən böyük pambıqçılıq rayonu Naxçıvan xanlığı idi. Hər il buradan qonşu dövlətlərə və xanlıqlara 15 min pud pambıq ixrac edilirdi. Xanlığın təbii-iqlim şəraiti və torpağı bu bitkinin becərilməsi üçün çox əlverişli idi. V.Qriqoryev yazırdı ki, Araz çayı boyunca uzanan qırmızı və sarı rəngli gilli torpaqlarda becərilən pambıq daha çox məhsul verirdi [9, c. 188]. Araz çayından çəkilmiş çoxlu suvarma kanalları və arxları pambıq tarlalarının suya olan tələbatını ödəmək üçün kifayət edirdi. Elə bunun nəticəsi idi ki, təkcə Ordubadın Araz çayı boyunca yerləşən torpaqlarında hər il 250 xalvar (sahə ölçüsü kimi 1 xalvar 1,5 desyatinə bərabər idi) sahədə pambıq əkilirdi [9, c. 188].

Naxçıvan xanlığının, demək olar ki, bütün mahallarında pambıqçılıq əhalinin əsas məşğuliyyət sahələrindən biri idi. Pambıq əkilən sahələr dörd bucaqlı formada olub çoxlu şırımlara bölünürdü. Belə sahələrdə səpilən hər batman pambıq çiyidindən bir batman təmiz pambıq əldə etmək olurdu [9, c. 89].

Naxçıvan xanlığının Rusiyaya birləşdirilməsi dövründə tərtib edilmiş arxiv sənədləri və V.N.Qrigoryevin elə həmin dövrə aid olan əsəri göstərir ki, öyrənilən dövrdə xanlığın bütün mahallarında əhali pambıq bejərməklə məşğul olurdu. Xanlığın Naxçıvan və Əlincəçay mahallarında pambıq sahələri daha çox idi. Naxçıvan şəhəri də daxil olmaqla Naxçıvan mahalının Təzəkənd, Nehrəm, Şıxmahmud, Didovar, Nəzərabad, Sirab və Cəhri kəndlərində pambıq əkinlərinin ümumi sahəsi 300 xalvardan çox idi [9, c. 130-141].

Əlincəçay mahalında pambıqçılığın başlıca mərkəzləri Culfa, Küznüt, Camaldin və Qızılca kəndləri idi. Bu kəndlər arasında Küznüt kəndi xüsusilə şöhrət qazanmışdı. Naxçıvan şəhərindən 17 verst şərqdə düzənlikdə yerləşən bu kəndin 1000 xavlvardan çox əkinə yararlı suvarılan torpaqları var idi [1, v. 2]. İran hakimiyyəti dövründə bütün

bu torpaqların xeyli hissəsində pambıq əkilirdi və əldə edilən məhsulun yarısı dövlət xəzinəsinə verilirdi. İran hökumətinin bu kənddən yığılan pambığın satışından əldə etdiyi illik gəlir 2 min tümənə çatırdı. Elə buna görə də Əlincə çay boyunca Küznüt kəndindən yuxarıda yerləşən kəndlərə çəltik və pambıq əkmək qadağan edilmişdi [1, v. 2]. Pambıq yığımı zamanı Küznüt kəndinə qonşu yaşayış məntəqələrindən, xüsusilə Mərənd xanlığından çoxlu əlavə işçi qüvvəsi cəlb olunurdu. Toplanmış məhsulun təxminən yarısı - 1500 batmanı vergi kimi dövlətə təhvil verilirdi [9, c. 109].

Lakin Rusiya-İran müharibələri Naxçıvan xanlığının digər yerlərində olduğu kimi, Küznüt kəndində də pambıqçılığa ağır zərbə vurmuşdu. Belə ki, əvvəllər bu kənddə pambıq əkinləri 100 xalvar ərazini əhatə edirdisə, 1828-ci ildə burada cəmisi 40 xalvarlıq ərazidə pambıq əkilmişdi [1, v. 2].

Son dövrlərdə nəşr olunmuş bəzi tədqiqat əsərlərində Naxçıvan xanlığının Dərələyəz mahalında pambıq becərilmədiyi göstərilir [6, s. 34]. Lakin mənbələrlə yaxından tanışlıq bunun heç də belə olmadığını sübut edir. V.Qriqoryev yazırdı ki, qara torpaqla qarışıq gilli torpaqlara malik olan Dərələyəz mahalında geniş pambıq sahələri var idi [9, c. 80]. Bu mahaldan axan Arpa çay boyunca uzanan torpaqlarda pambıq daha yaxşı yetişirdi.

Digər texniki bitkilərlə müqayisədə Azərbaycanda tütünçülüyün tarixi elə də qədim deyildir. İran tarixçilərinin məlumatlarına əsaslanan Ə.Ə.Rəhmani göstərir ki, bu bitkini İran ərazisinə XVI əsrin 90-cı illərində portuqaliyalılar gətirmişdilər [12, c. 117]. Görünür, tütün tədricən İrandan Azərbaycana da yayılmağa başlamışdı. XVIII əsrin birinci yarısında Azərbaycanın bir çox bölgələrində, xüsusilə Naxçıvanda tütünçülüyün yayılması haqqında məlumatlar var. Naxçıvan sancağının müfəssəl dəftərindən aydın olur ki, Türkiyənin vergi orqanları 1727-ci ildə bu sancağın 18 kəndindən «tənbəki üşürü» adı altında vergi toplayırdılar. Ayrı-ayrı kəndlərdən toplanan vergilərin miqdarı göstərir ki, tütünçülük Əlinjə nahiyəsinin Kiçik Xaçaparaq və Saltaq kəndlərində daha çox inkişaf etmişdi [8, s. 68, 74]. Belə ki, 1727-ci ildə Kiçik Xaçaparaq kəndindən 1500, Saltaq kəndindən isə 1200 ağça həcmində tənbəki üşürü toplanmışdı. Müqayisə üçün göstərək ki, elə həmin il Qışlağat nahiyəsinin Yamxana kəndindən cəmisi 20, Azadciran nahiyyəsinin Yuxarı Əylis kəndindən isə 10 ağca həcmində belə vergi yığılmışdı [8, c. 155, 215].

XVIII əsrin ikinci yarısı – XIX əsrin əvvəllərində Naxçıvan xanlığında, məhdud miqdarda da olsa, tütün əkilirdi. Xanlığın Əlincəçay mahalının Ayaq Camaldin, Kirna, Bənənyar və Saltax kəndlərində [1, v. 47-130], Ordubadın Belev mahalının Xurs, Dərə Nurqut və s. kəndlərində [3, v. 139-147] tütün sahələri var idi.

XVIII əsrin ikinci yarısı-XIX əsrin əvvəllərində Azərbaycanda bağçılığın ən mühüm mərkəzlərindən biri Naxçıvan xanlığı idi. Naxçıvan xanlığının Rusiya tərəfindən işğalı dövründə tərtib edilmiş mənbələrdə bu barədə xeyli məlumata rast gəlmək mümkündür. Çox təəssüf ki, bu mənbələrdə bağçılıq haqqında verilən məlumatlar əksər hallarda ümumi xarakter daşıdığından xanlıqda meyvə və üzüm bağlarını ayırmaq xeyli çətinlik törədir. Bununla belə, həmin məlumatlar bağçılığın xanlığın bütün ərazisində yayılması fikrini irəli sürməyə imkan verir.

Naxçıvan dairəsində bağçılıq Naxçıvan şəhərində, Dərələyəz və Əlincəçay mahallarında geniş yayılmışdı. Ordubad dairəsinə daxil olan mahallar istisna olmaqla Naxçıvan xanlığında 541-ə qədər üzüm və meyvə bağları var idi ki, bunların da 184-ü Naxçıvan şəhərində, 166-sı Dərələyəz mahalında yerləşirdi [13, c. 745-748]. Hər il bu bağlardan 181 xalvar meyvə yığılırdı. Naxçıvan dairəsinin Əlincəçay mahalı da öz meyvə bağları ilə məşhur idi. Bu mahalın Əbrəqunis və Caracur kəndlərində meyvə bağları daha çox idi. Əbrəqunis kəndində olan 8 meyvə bağından hər il 30 batman quru meyvə, Ca-

racur kəndindəki 4 bağdan isə 300 batman təzə meyvə yığılırdı [1, v. 78, 163]. Mahalın Arazin, Bənənyar, Noraşen və Qazançı kəndlərində də xeyli meyvə bağları var idi. Ümumiyyətlə, 24 kənddən ibarət olan Əlincəçay mahalında 50-dən çox meyvə bağı var idi ki, bu bağlardan da hər il 871 batman meyvə yığılırdı [1, v. 215].

Naxçıvan xanlığında meyvəçiliyin əsas mərkəzi Ordubad şəhəri və ona tabe olan mahallar idi. Ordubad bağları yalnız Naxçıvan xanlığında deyil, bütün Cənubi Qafqazda şöhrət tapmışdı. Müasirlərdən biri yazırdı ki, Ordubadda olan bütün evlərin həyətində meyvə bağları var [9, c. 195]. Bu bağlarda yetişən şaftalı, ərik, albalı, vişnə, gavalı, qoz, tut və s. çox əla keyfiyyətə malik olub bütün Cənubi Qafqazda ən rəvac mallardan hesab olunurdu.

Ordubad bağlarından böyük heyranlıqla danışan İ.Şopen yazırdı ki, burada almanın, armudun, şaftalının və gavalının bir neçə növü yetişir. Onun yazdığına görə Ordubadın «gülabi» adlı armudu öz dadına və xüsusilə böyüklüyünə görə seçilirdi. Bu armudlar tam yetişərkən o qədər böyük olurdular ki, onların ikisini bir boşqaba yerləşdirmək mümkün olmurdu. Onun bəzi növlərini hətta yaza qədər də saxlamaq olurdu [13, c. 749]. Ordubad həm də mənbələrin əksəriyyətini «albuxara» adlandırdığı alça və gavalılarla məşhur idi. Gavalının çox müxtəlif növlərinin olmasından bəhs edən müasirlərdən biri burada alçanın xüsusilə yaxşı yetişdiyini qeyd edir [2, v. 3].

Naxçıvan xanlığında, xüsusilə Ordubad dairəsinin Dəstə, Belev və Ordubad mahallarında çox yüksək keyfiyyətli qoz yetişirdi. Əhali burada yığılan qoz məhsulunu çəki ilə deyil ədədlə hesablayırdılar. Bu qozdan toplanan vergi ilə bağlı idi. Yerli əhali bu məhsula görə hər on qozdan 2 ədəd qaydası ilə vergi ödəyirdi. Bütövlükdə hər il Naxçıvan xanlığında 1 mln. 300 min ədəd qoz yığılırdı [13, c. 749].

Ərazi baxımından kiçik olmasına baxmayaraq, Ordubadda meyvə bağlarının sayı daha çox idi. İ.Şopenin apardığı hesablamalara görə, Naxçıvan və İrəvan xanlıqlarında bağların ümumi sahəsi 2311 xalvar olub bu xanlıqların bütün ərazilərinin 1/4 hissəsini təşkil edirdi [13, c. 749]. Çox güman ki, Ordubadda bağlar bütün ərazinin yarıdan çoxunu əhatə edirdi. Bağların ümumi sayı burada 1386-dan çox idi [13, c. 218-219]. Bu bağların xeyli hissəsi Ordubad şəhərində yaşayan əhaliyə məxsus idi. Burada olan 193 bağ daha böyük sahəni əhatə edirdi [9, c. 218-219]. Bəzi məlumatlara görə XVIII əsrin sonuncu onilliyində Naxçıvan xanlığında hər il 2495 pud meyvə yetişdirilirdi [7, s.86 ]. Tam inamla söyləmək olar ki, bu meyvələrin çox böyük hissəsi Ordubad bağlarının payına düşürdü.

Mənbələrdə Naxçıvan xanlığında üzümçülüyün vəziyyəti haqqında daha geniş məlumata rast gəlmək mümkündür. Bu, şübhəsiz ki, Naxçıvan xanlığında üzümçülüyün daha yüksək inkişaf səviyyəsinə çatması ilə bağlı idi. Xanlıqda üzümçülüyün inkişafı üçün yararlı torpaqlar çox olsa da üzüm bağları daha çox Naxçıvan şəhərində cəmləşmişdi. Naxçıvan xanlığının Rusiya tərəfindən işğalı dövründə burada üzüm bağları 30 xalvarlıq (45 desyatin) sahəni əhatə edirdi [9, c. 91].

Naxçıvan xanlığında üzümün çox müxtəlif növlərinə rast gəlmək mümkün idi. Bu növlər bir-birindən özlərinin rənginə, formasına, ölçüsünə və dadına görə fərqlənirdilər. İ.Şopen burada qara, qırmızı, çəhrayı, yaşıl və yaşılımtıl , ağ, sarı və sarımtıl rəngli üzüm növlərinə rast gəldiyini yazır. O, Naxçıvan xanlığı üçün xarakterik olan bir sıra üzüm növlərinin qısa təsvirini də verir. Qaraşahani adlanan üzüm növü qara rəngli uzunsov, ağ saati-ağ rəngli və iri dənəli, ən yaxşı növlərdən hesab edilən əsgəri-ağrəngli və xırda dənəli, mərəzə-göy rəngli və iri dənəli, rişibaba-ağ rəngli, iri və uzunsov dənəli, kişmişi-ağ rəngli və xırda tumsuz dənəli, xəlilli -tez yetişən olub ağ rəngli, kiçik və uzunsov dənəli, qırmızı kişmişi-qırmızı rəngli, tumsuz, xırda və yumru dənəli olurdu [13, c.

750-751]. XIII əsrin sonuncu onilliyində xanlıqda hər il 3600 pud üzüm yetişdirilirdi [ 7, s. 86].

Naxçıvan üzümü özünün hədsiz dərəcədə şirinliyi ilə seçilirdi. Yetişdirilmiş məhsulun xeyli hissəsi, xüsusilə kişmişi növü yeməyə sərf olunurdu. Yığılmış üzümün bir hissəsi isə istər təzə, istərsə də qurudulmuş şəkildə satışa çıxarılırdı. Məhsuldarlığın yüksək olduğu illərdə 1 xalvarlıq sahədən 400 tümən gəlir götürmək mümkün olurdu [9, c. 91]. Yerli əhali yetişməmiş üzümdən ağ rəngli sirkə hazırlayırdılar. Bu sirkəni çox yüksək qiymətləndirən İ.Şopen onu hətta Moskvaya da göndərməyi məsləhət görürdü [13, c. 752].

Meyvəçilikdə olduğu kimi, üzümçülükdə də Ordubad mahalının özünəməxsus mövqeyi var idi. Ordubadın orta iqlim qurşağında yerləşən bir qədər gilli və qumsal torpaqları üzümçülük üçün çox əlverişli idi. Əylis mahalının Yuxarı Əylis, Varagirt və Aşağı Əylis kəndləri özlərinin üzüm bağları ilə məşhur idi. Arxiv sənədi əsasında apardığımız hesablamalara görə bu üç kənddə 317 üzüm bağı salınmışdı [2, v. 2-3, 58-74].

Naxçıvan xanlığı özünün çox dadlı qarpız və yemişləri ilə məşhur idi. Müasirlərdən biri yazırdı ki, yay və payız aylarında əhalinin əsas qidalarından birini yemiş və qarpız təşkil etdiyindən Naxçıvan xanlığında bu bitkilərin becərilməsi çox geniş miqyasda aparılırdı [9, c. 89].

Azərbaycanın əksər xanlıqlarında bostan bitkiləri meşədən təmizlənmiş sahələrdə və qumsal torpaqlarda əkilirdi. Belə sahələr çox münbit olduğundan bir neçə il ərzində yüksək məhsul əldə etmək olurdu. Əksər hallarda bu bitkilərin toxumları suda cücərdilir və əvvəlcədən şumlanmış sahəyə səpilərək malalanır və suvarılırdı [5, s. 111]. Bəzi xanlıqlarda bostanlar əvvəlcədən hazırlanmış ləklərdə - taxtalarda səpilirdi. Bu baxımdan Naxçıvan xanlığı daha xarakterik idi.

Naxçıvan xanlığında yemiş və qarpızın əkilməsinə aprel ayından başlanırdı və aşağıdakı qaydada aparılırdı. Əvvəlcə torpaq şumlanır və küllə gübrələnirdi. Sonra isə bir bostan üçün nəzərdə tutulan sahədə 25 arx düzəldilirdi. Adətən, bir xalvarlıq sahədə (1,5 desyatin) 1000 arx olurdu. Qarpız səpildikdən 3,5 ay, yemiş isə 4 ay sonra yetişirdi. Bir xalvarlıq sahədən ildə gümüş pulla 80 manat gəlir götürmək olurdu [9, s. 90].

XIX əsrin əvvəllərinə aid kameral təsvirlər göstərir ki, bostançılıq Naxçıvan xanlığının bütün mahallarında yüksək inkişaf səviyəsinə çatmışdı [1, v. 44-191]. Naxçıvan şəhərində, Əlincəçay, Naxçıvan və Dəstə mahallarında bostan sahələri daha çox idi. Təkcə Naxçıvan şəhərində yerli əhaliyə məxsus 20 xalvarlıq bostan sahələri var idi [9, c. 70]. Yarımca, Şıxmahmud, Xəlilli, Tumbul, Didovar, Nehrəm, Əbrəqunis, Bənənyar, Culfa, Saltax, Noraşen və s. kəndləri özlərinin bostan məhsulları ilə məşhur idilər. 1828-ci ildə ancaq Naxçıvan dairəsində 50 xalvar sahəni əhatə edən bostanlardan yarım milyon ədəd yemiş və qarpız yığılmışdı [9, c. 90].

Naxçıvan xanlığında yetişdirilən tutma adlı yemiş daha məşhur idi. İ.Şopen yazırdı ki, bu yemiş bütün Cənubi Qafqazda yetişdirilən ən dadlı və böyük yemiş hesab edilir [13, c. 742]. Bir qədər sonrakı dövrlərə aid mənbələr göstərir ki, bu yemişin nadirxani, mianbab, ağca nabat, göycə nabat, yayıcı, qələm qaş, həsənbəyi, əsədi, buğda toxumu, narıncı, hacıibrahimi, əsgəri kimi çox müxtəlif növləri var idi [10, c. 131].

Göründüyü kimi, XVIII əsrin ikinci yarısı - XIX əsrin əvvəllərində əkinçilik Naxçıvan xanlığında iqtisadiyyatın aparıcı sahələrindən birini təşkil edirdi. Əkinə yararlı torpaqların və suvarma mənbələrinin bolluğu, əkinçilərin əsrlərin sınağından keçmiş zəngin təcrübəsi və əkinçilik məhsullarına daimi tələbatın olması xanlıqda iqtisadiyyatın bu sahəsinin inkşafı üçün əlverişli şərait yaradırdı.

## ƏDƏBİYYAT

1.Azərb. DTA, f. 24, siy. 1, iş 354, II h.
2.Azərb. DTA, f. 24, siy. 1, iş 358
3.Azərb. DTA, f. 24, siy. 1, iş 360
4.Azərb. DTA, f. 24, siy. 1, iş 361
5.Bünyadov T.Ə,Quliyev Ş.A., Cavadov Q.C. Bostançılıq və tərəvəzçilik. Azərbaycan etnoqrafiyası. Bakı, "Elm", 1988
6.Əliyev F., Əliyev M. Naxçıvan xanlığı. Bakı, Azərnəşr, 1996
7.Quliyev N. Naxçıvan xanlığının əhalisi (tarixi – demoqrafik tədqiqat). Bakı, 2006
8.Naxçıvan sancağının müfəssəl dəftəri. Araşdirma, qeyd və şərhlərin müəllifi H. Məmmədov. Bakı, "Elm", 2001
9.Григорьев В.Н. Статистическое описание Нахичеванской провинции. СПб, 1833
10.Зелинский С.П. Садоводство в Закавказском крае. Свод материалов по изучению экономического быта государственных крестьян Закавказского края. т.IV, ч.II, Типография М.Д.Ротинианца. 1888
11.Обозрение российских владений за Кавказом в статистическом, топографическом, этнографическом и финансовых отношениях. СПб, 1836
12.Рахмани А.А. Азербайджан в конце XVI и в XVII веке. Баку, изд. «Элм», 1981
13.Шопен И. Исторический памятник состояния армянской области в эпоху ее присоединения к Российской империи. СПб, 1852

**ЭМИЛИЯ АЛИЕВА**

## ЗЕМЛЕДЕЛИЕ В НАХИЧЕВАНСКОМ ХАНСТВЕ ВО ВТОРОЙ ПОЛОВИНЕ XVIII – НАЧ. XIX ВВ.

Ведущей отраслью экономики Нахичеванского ханства во второй половине XVIII – нач. XIX вв. составляло земледелие. При небольшом разнообразии почв, земледелие во всех частях ханства было почти одинаковым по технике обработки. Ханство славилось большим разнообразием зерновых культур, прекрасными фруктовыми садами. Продукты технических культур, особенно хлопководства, являлись предметом экспорта и сырьем для местной ремесленной промышленности

**EMILIYA ALIEVA**

## AGRICULTURE IN NAKHCHIVAN KHANATE IN THE SECOND HALF OF THE XVIII – BEGINNING OF THE XIX CENTURIES

Agriculture was the leading fields of the economy of Nakhchivan khanate in the second half of the XVIII and the beginning of the XIX centuries. At a small variety of land, agriculture was almost identical on technique of processing in all parts of khanate. Khanate was famous for its greater variety of grain crops, fine orchards. Products of commercial crops, especially cotton-growing, were a subject of export and the raw material for the local craft industry.

***Rəyçilər: t.e.n.Ş.P.Həmidova, t.e.d.Q.Ə.Əliyev.***
***AMEA A.A.Bakıxanov adına Tarix İnstitutu «Azərbaycan qonşu xalqlarla əlaqələri və xanlıqlar dövrü tarixi» şöbəsinin 04 mart 2009-cu il tarixli iclasının qərarı ilə çapa məsləhət görülmüşdür (protokol №02).***